Yay məktəbinin əsas məqsədi keçid mərhələsində olan ölkələrin təhsil işçilərini aktuallıq kəsb edən problemlər ətrafında düşündürmək və məlumatlandırmaq olub. Məktəbdə dünyanın 10 ölkəsindən 23 dinləyici-təhsil üzrə mütəxəssis iştirak edib.

Beş günlük məşğələlər ərzində iştirakçılar müxtəlif ölkələrin təhsil sahəsi üzrə tanınmış mütəxəssislərinin “Keçid ölkələrində təhsil siyasəti”, “Təhsil və sosial bərabərlik”, “Müəllim və kurrikulumun keyfiyyəti”, “Akademik nailiyyətlər”, “Maliyyələşdirmə və dövlət idarəetməsi” mövzularında mühazirələrini dinləyib, öz ölkələrinin təcrübələri barədə müzakirələr aparıb və verilən tapşırıqlar üzərində çalışıblar.

Sonda dinləyicilərə fəal iştiraka və müvəffəqiyyətlərinə görə sertifikatlar təqdim olunub.